Səh. 2 Pluviofil – Azər Musaoğlu

Səh. 4 Müəllimlərin əməkhaqqı qaydasında dəyişiklik edilib

Səh. 5 Qəbiristanlıq – Aytən Fətullayeva

Səh. 6 Türkdilli xalqların əxlaqi-estetik aləmi – Elizbar Cavelidze

Səh. 3 Tarixin tozlu səhifələrindən günümüzə uzanan vassallıq – Lamiyə Hacıyeva

Səh. 4 Məktəb direktorları üçün imtahan 22 yanvarda elektron qaydada keçiriləcək

Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2023-Cİ İL
№ 001 (172)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## POLŞA SEYMİ SAAKAŞVİLİYƏ DƏSTƏK ÜÇÜN QƏTNAMƏ QƏBUL EDİB



Polşa Seymi həbsdə olan keçmiş Prezident Mixeil Saakaşvili ilə bağlı qətnamə qəbul edib. Məlumatı Polşa mətbuatı yayıb.

Qətnamədə Mixeil Saakaşvilinin sağlamlığı və həyatının qorunması üçün beynəlxalq ictimaiyyətə çağırış edilib.

Parlamentarilər Gürcüstan rəsmilərini dərhal Saakaşvilinin zəruri müalicə alması üçün icazə verməyə çağırıblar.

Qətnamədə göstərilib ki, M.Saakaşvilinin Gürcüstanda avropapərəst əhval-ruhiyyənin formalaşmasında mühüm töhfəsi olub və bunun nəticəsində Gürcüstan hökuməti 2022-ci ildə Avropa İttifaqına üzv olmaq üçün müraciət edib.

Qətnaməni Seymin 438 üzvü dəstəkləyib, 8 deputat əleyhinə səs verib, daha bir deputat isə neytral qalıb.

## DİN XADİMLƏRİ DƏ MƏCBURİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILACAQLAR



Gürcüstanın Müdafiə Nazirliyinin yeni islahatları çərçivəsində ölkədə dini təşkilatlarda qeydiyyatda olan din xadimləri də məcburi hərbi xidmətə çağırılacaqlar.

Bütün dinlərin nümayəndələri orduda xidmət etməyə borcludur. Dini xidmət artıq məcburi hərbi xidmətin təxirə salınması üçün bir səbəb deyil. Bu, yeni Müdafiə Məcəlləsində nəzərdə tutulub. Məcəlləyə əsasən, ruhani şəxslərin qeyri-hərbi alternativ əmək xidmətindən keçmək imkanı da olacaq.

Müdafiə nazirinin müavini Qriqol Giorqadzenin sözlərinə görə, yeni məcəlləyə uyğun olaraq, dini xidmət məcburi hərbi xidmətin təxirə salınması üçün əsas deyil. Bütün dinlərin nümayəndələri orduda xidmət etməyə borcludular və heç bir dini konfessiyanın diskresiya (diskresiya – vəzifəli şəxslərin və ya dövlət orqanlarının hər hansısa bir məsələni öz qərarlarına uyğun həll etmələri – Red.) şərtlərindən istifadə etmək imkanı olmayacaq. Ruhani şəxslərin qeyri-hərbi alternativ əmək xidmətindən keçmək imkanı olacaq. Həmin xidmətin şərtləri müvafiq qanunvericiliklə müəyyən edilir.

2022-ci ilin sonunda Müdafiə Nazirliyi sözügedən qanun layihəsini irəli sürüb və parlamentin yaz sessiyasında müzakirəyə çıxarılaraq qəbul edilməsi planlaşdırılır.

Qeyd edək ki, Gürcüstanda dini təşkilatlarda, kilsə və məscidlərdə xidmət edərək qeydiyyatdan keçən şəxslər məcburi hərbi xidmətə getməmək hüququna malikdirlər.

## UKRAYNA GÜRCÜSTANA YENİ SƏFİR TƏYİN EDƏCƏK



Ukrayna hakimiyyəti Gürcüstana təyin ediləcək yeni səfirin namizədliyi ilə bağlı qərar qəbul edib.

Ukrayna mətbuatının yaydığı məlumata əsasən, Ukrayna hökuməti Volodimir Lukyanovu Gürcüstanda yeni səfir təyin etmək niyyətindədir. Onun fevralın əvvəlində Tbilisidə səfir fəaliyyətinə başlayacağı gözlənilir.

Volodimir Lukyanov Ukrayna XİN əməkdaşıdır və Gürcüstanda səfir kimi fəaliyyət onun ilk diplomatik missiyası olacaq.

Xatırladaq ki, keçən ilin martın 1-də Ukrayna Prezidenti Volodimir Zelenskinin Gürcüstandakı səfiri geri çağırandan sonra Ukraynanın bu ölkədə səfiri yoxdur.

## RUSİYA GÜRCÜSTANA İXRAC ETDİYİ BUĞDANIN VERGİSİNİ ARTIRIR



Gürcüstanın əsas buğda idxalçısı olan Rusiya taxılın ixrac vergisini yenidən artırır.

Yanvarın 11-dən Rusiyadan idxal olunan buğdanın bir tonu üçün ixrac vergisi 4766,30 rubl (60 dollar) oldu. Bu da, əvvəlki illə müqayisədə 14,5 faiz çoxdur.

Qeyd edək ki, Rusiyadan buğda ixracına bir ton üçün 4160,9 rubl tələb olunurdu. Rusiyada uzun müddətdir ki, buğda ixracı vergisi qüvvədədir və bu ildən idxalçı ölkələr üçün qiymətləri artırır.

Dünyanın digər ölkələri kimi Gürcüstan da ehtiyatlarını unla doldurmağa çalışır və Rusiya hələlik unun ixracına vergi tətbiq etməyib.

Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına görə, 2022-ci ilin 11 ayında ölkə 55,4 milyon ABŞ dolları dəyərində 155 min 704 ton buğda idxal edib. Bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 56 faiz azdır. 2021-ci ildə Gürcüstan 88,7 milyon ABŞ dolları dəyərində 352 min 719 ton buğda alıb. Ənənəvi olaraq, əsas idxalçı ölkə Rusiyadır.

Ümumilikdə Gürcüstan 8 ölkədən məhsul alıb.



# PLUVİOFİL

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əgər yağış yağanda özünü rahat, yağışlı havalarda özünü xoşbəxt hiss edirsənsə; pəncərənin qarşısında oturub saatlarla yağışın yağmasına tamaşa etməkdən zövq alırsansa; yağışın səsi sənin üçün ən gözəl musiqidirsə, ən gözəl ətir yağışın qoxusudursa; yağışın altında gəzməyi sevirsənsə və yağışlı havaların çox olduğuna görə sevdiyin fəsil payızdırsa, deməli, sən düzgün coğrafiyada doğulmamısan. Çünki sənin pluviofilliyin burada keçərli deyil; burada nə qədər istəsən də yağışdan zövq ala bilməyəcəksən; yağış yağan kimi çətirsiz yağışın altında gəzərək doyunca islana bilməyəcəksən... Nəyə görə?..

Əvvəla ona görə ki, sənə dəli kimi baxacaqlar, bunu qoyaq bir kənara; sonra da ki, buralarda bir balaca yağış yağan kimi yer-göy palçığa bələnir, evdən mağazaya gedib-qayıdana kimi, nə qədər ehtiyatlı yerisən də, alt paltarına kimi çamıra bulaşırsan. Hələ mən adı şəhər olan, şəhərin mərkəzi olan yerdən danışıram, gör indi bunun adı kənd olan yerləri nə gündədir.

Elə ki yağışlar yağmağa başladı günün qara palçığa batır, evdən bayıra çıxmaq sənin üçün Rubikonu keçmək kimi bir zada çevrilir. Sən hara, pluviofil hara? Sənin pluviofil olmağına hələ əsrlər var ki, onu da görəsən, ya görməyəsən, ay bədbəxt.

Ona görə də vaxtını bu cür boş və mənasız şeylərə sərf eləmə, yağış romantikası sənlik deyil, daha doğrusu, sənin yaşadığın coğrafiyalıq deyil. Qoy bu romantikaya heç olmasa sənin o bicarə şairlərin, rəssamların qurşansınlar. Sən qonum-qonşudan, qohum-əqrəbadan beş-altı adam yığ, get meriyaya, yol departamentinə, nə bilim, parlamentin qarşısına ki, bir az səs-küy salıb etirazdan-zaddan edəsən; yolla, yağışla, palçıqla bağlı sözlərdən ibarət şüarlar yazılmış plakatlar qaldır, de ki, mən də pluviofil olmaq istəyirəm, amma sizin biganəliyiniz, məsuliyyətsizliyiniz, vicdansızlığınız, yarıtmazlığınız, işbilməzliyiniz, tayfabazlığınız, yerlibazlığınız və digər bazlıqlarınız sayəsində pluviofil ola bilmirəm, yağışın ləzzətini çıxara bilmirəm. De ki, sizin nə vecinizə, cipiniz mənim mətbəxtimdən yekədi, az qala tualetə də maşınla gedirsiniz; asfalt örtüyünü birinci evlərinizə, qohumlarınızın evlərinə aparan yollara çəkdirmisiniz. De ki, seçkilər yaxınlaşar, yenə gəlib yalvararsınız ki, ayağınızın altında asfalt örtüyü olum, bizə, partiyamıza səs verin, sizin palçıqlı yolunuza asflat çəkəcəyik. Sonra da hansı məhlədən çox səs yığdığınızı hesablayıb o məhlələrə asfalt döşədin, az səs topladığınız məhlələrin yollarını isə əndərəbadi bəhanələrlə asfaltsız qoyaraq qocasının, cavanının, uşağının, hamiləsinin, xəstəsinin ayağını palçığa batıraraq hər yağış, qar yağanda söyüş, qarğış yiyəsi olun. Bunları de, deyim hə!

Yoxsa, ay mən yağışın səsindən məst oluram, günlərlə yağış yağa mən də mürgü döyə-döyə pəncərədən ona tamaşa edəm, nə bilim daha nə edəm... Yağış romantikası sənin elə rezin qaloşlarına yaraşır. Hələ var yağış da bir yağış ola, elə bil göydən sement yağır. Pluviofil olana kimi, arada bir başını qonşu şəhərdəki sement zavodlarına da çevir, üstünü bürüyən sement dumanına da nəzər sal, bəlkə palçıqlı yağışın haradan yağdığını görüb yağış romantikasından əl çəkəsən, keçəsən ekoaktivistlərin sırasına.

Bir də ki, sənin bu pluviofilliyindən başqalarına nə xeyir? Bir balaca yağış yağan kimi bütün şəhərin işıqları söndürülür, internet kəsilir, su kəsilir – hamamda sabunlu qalırsan, binaların damları sızır, xəstəliklər artır, hər şey bir-birinə qarışır. Sənin pluviofil olmaq eşqinə görə başqaları niyə əzab-əziyyət çəkməlidir ki?! Belə yağış sevənsən çıx get Londonda yaşa, buralar Londonun bir məhləsinə yaxın şəraitə oxşayanda, heç olmasa yollarımız asfaltlananda; sovetdən qalmış, yağışa dözümsüz işıq kabelləri təzələnəndə sən də qayıdıb gələrsən. Söz verirəm, sənin şəhərimizin ilk pluviofili olduğun haqqında birinci mən yazacam. Mən söz verirəm, amma görək seçkiqabağı küçə-küçə düşüb səs dilənənlər ən azı palçıqlı yollarımıza asfalt döşətdirəcəkləri haqqında verdikləri sözə əməl edəcəklərmi, yoxsa tender-blender söhbəti ilə yenə növbəti seçkiyə qədər camaatı aldadaraq palçıqlı yola verəcəklərmi – bax, bunu deyə bilmərəm. Sənin pluviofilliyin bir az da onlardan asılıdır yəni. Onu da xatırladım ki, buralarda həyasızın üzünə tüpürürsən, deyir yağış yağır.

Az qala yadımdan çıxmışdı, bilməyənlər üçün qeyd edim ki, pluviofil, – zəhrimar adamın dilinə də yatmır, – yağışı sevən adama deyilir. Birdən elə bilərsiniz müxalifətlə-zadla bağlıdır, yox, narahat olmayın, buralarda nə müxalifət üçün, nə də pluviofillər üçün münbit şərait hələ ki yoxdur. Belə ki, çətirlərinizi götürməyi unutmayın, əziz və nadir pluviofillər.

## BU İL GÜRCÜSTANA YALNIZ “AVRO-5” STANDARTINA UYĞUN DİZEL YANACAĞI GƏTİRİLƏCƏK




Gürcüstanda dizel yanacağı ilə bağlı yeni qanun qüvvəyə minib. Qanuna əsasən, bu il Gürcüstana yalnız “Avro-5” standartına uyğun dizel yanacağı gətiriləcək.

Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin müavini Nino Tandilaşvili bildirib ki, yeni qanunun tətbiqində məqsəd ətraf mühitin çirkləndirilməsinin qarşısını almaqdır.

Onun sözlərinə görə, hazırda ölkəyə idxal olunan benzinin tərkibi tələb olunan normalara uyğundur. Lakin dizel yanacağında müəyyən problemlər var. Ona görə də bu ildən ölkəyə yalnız “Avro-5” standartlarına cavab verən dizel yanacağının idxalına icazə verilir. Hökumət yanacaq idxalına nəzarəti gücləndirib və qanunu pozan şəxslərə qarşı ciddi sanksiyalar tətbiq olunacaq.

Nazir müavini deyib ki, ətraf mühitin mühafizəsi məqsədilə daha bir qanun hazırlanıb. Yeni qanunla avtomobillərin ətraf mühiti çirkləndirməsinə görə, sərt cəzalar müəyyən edilib.

Qanun layihəsi bu il qüvvəyə minəcək.

“Avro 5” dizel yanacağı az miqdarda poliaromatik karbohidrogenlərin və kükürdün olması ilə xarakterizə olunur. Eyni zamanda, onun setan sayı daha yüksəkdir.

“Avro-5” tələblərinə uyğun olaraq yanacağın tərkibindəki kükürdün miqdarı 10 mq/kq daxilində olmalıdır. “Avro-3”də bu rəqəm 350 mq/kq təşkil edir.

## ÖTƏN İL ƏTRAF MÜHİTƏ NƏZARƏT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI 12 295 QANUN POZUNTUSU FAKTI AŞKAR EDİBLƏR




Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Ətraf Mühitə Nəzarət Departamentinin əməkdaşları ölkə miqyasında aparılan prevensiya tədbirləri nəticəsində 2022-ci il yanvarın 1-dən dekabrın 31-nə qədər ətraf mühitlə bağlı 12 295 qanun pozuntusu faktı aşkar edilib, buradan 509 fakt cinayət əlamətləri daşıyır. Bu barədə Ətraf Mühitə Nəzarət Departamenti məlumat yayıb.

Bildirilir ki, qanun pozuntuları ilə bağlı materiallar reaksiya göstərilməsi məqsədilə istintaq orqanlarına göndərilib.

“Ən çox – 3 881 fakt qeyri-qanuni meşə istifadəsinə aiddir; 1 802 fakt meşə qanunvericiliyinin, 1 298 fakt ağacın qanunsuz daşınması qaydalarının, 781 fakt isə mişar zavodları tərəfindən texniki reqlamentlərin pozulması ilə bağlıdır.

Departament əməkdaşları həmçinin 2022-ci il yanvarın 1-dən dekabrın 31-nə qədər tullantıların idarə olunması ilə bağlı 2 718, hava qanunvericiliyi ilə bağlı 1 843, balıqçılıq və ovçuluq qaydaları ilə bağlı 1 103, faydalı qazıntılarla bağlı 754, torpaq qanunvericiliyi ilə bağlı 397, su qanunvericiliyi ilə bağlı 366 qanun pozuntusu və 327 icazə şərtlərinin pozulması/icazəsiz fəaliyyət aşkar ediblər. Həmin dövrdə ətraf mühitlə bağlı başqa qanun pozuntuları ilə bağlı 906 fakt müəyyən edilib.

Departament əməkdaşları Kaxetidə ətraf mühitlə bağlı 2 760 qanun pozuntusu faktı aşkar ediblər. Qərb Regional Bölməsinin fəaliyyət göstərdiyi ərazidə 2 730, Şərq Bölməsinin fəaliyyət ərazisində 1 674, Acara və Quriya Regional Bölməsinin fəaliyyət ərazisində 1 532, Sameqrelo-Zemo Svanetidə 1 166, Kvemo Kartlidə 769, Samtsxe-Cavaxetidə 760 qanun pozuntusu faktı aşkarlanıb. Qara Dəniz Mühafizəsinin Konvensiya İdrəçiliyinin əməkdaşları tərəfindən ətraf mühitlə bağlı 62 qanun pozuntusu faktı aşkarlanıb.

2022-ci il yanvarın 1-dən dekabrın 31-nə qədər Tbilisidə Ətraf Mühitə Nəzarət Departamentinin əməkdaşları tərəfindən 842 qanun pozuntusu faktı aşkar edilib, onlardan 19-unda cinayət əlamətləri var”, – deyə məlumatda bildirilir.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ ARASINDA ELEKTRİK ÖTÜRÜCÜ XƏTTİNİN TİKİNTİSİNƏ BAŞLANILACAQ




Gürcüstan hakimiyyəti 2023-cü ildə Gürcüstan və Türkiyənin enerji sistemlərini birləşdirəcək "Tsxaltubo-Axaltsixe-Tortum" elektrik ötürücü xətlərinin tikintisinin birinci mərhələsinin icrasına başlamağı planlaşdırır.

Məlumata əsasən, bu elektrik ötürücü xətlərinin tikintisi layihəsi Almaniyanın "KfW" bankının maliyyə dəstəyi ilə həyata keçiriləcək və onun dəyəri, təxminən, 62 milyon avro təşkil edəcək.

Gürcüstanın büdcə proqnozlarına əsasən, 2023-cü ildə birinci mərhələdə uzunluğu 103 kilometr olan 500 kV-luq "Tsxaltubo-Axaltsixe" elektrik ötürücü xətlərinin tikilməsi planlaşdırılır.

İkinci mərhələdə isə 34 kilometr uzunluğunda 400 kV-luq "Axaltsixe-Tortum" layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRİ YOR MUĞANLIDA YENİ YARADILAN TƏHSİL MƏRKƏZİNDƏ OLUB



Saqareco bələdiyyəsinin Yor Muğanlı kəndində yerli müəllimlərin təşəbbüsü və əhalinin maddi dəstəyi ilə "Parlaq gələcək kitab evi" tədris mərkəzi fəaliyyətə başlayıb.

Təhsil mərkəzində Azərbaycan və gürcü dillərində iki mindən artıq kitab toplanıb. Hazırda kitabxana kimi fəaliyyət göstərən təhsil mərkəzində gələcəkdə müxtəlif tədris kurslarının da təşkili nəzərdə tutulub.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev mərkəzə baş çəkib.

"Parlaq gələcək kitab evi" tədris mərkəzinin şagirdləri tərəfindən müxtəlif şeir, mahnı və milli rəqslərdən ibarət bədii proqram nümayiş etdirilib. Mərkəzin şagirdi tərəfindən çəkilmiş "Qız qalası" rəsmi səfirə hədiyyə edilib.

F.Quliyev müəllim heyəti ilə söhbəti zamanı mərkəzin yaradılmasını yüksək qiymətləndirib və bunun digər bölgələrdəki soydaşlarımız üçün nümunə olduğunu bildirib. Vurğulayıb ki, bu cür mərkəzlər soydaşlarımızın inteqrasiya prosesində, onların gürcü dili və təhsil problemlərinin həllində mühüm rol oynayacaq.

Səfir, həmçinin Azərbaycan dövlətinin Gürcüstandakı azərbaycanlı icmasının təhsil sahəsində bir sıra məsələlərin həlli istiqamətində atdığı mühüm addımlardan danışıb, təhsil işçilərini maraqlandıran sualları cavablandırıb.

## BTC İLƏ NƏQL EDİLƏN NEFTİN HƏCMİ 4 MİLYARD BARELİ AŞIB



Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə veriləndən 2022-ci ilin sonunadək Türkiyənin "BOTAS International Limited" (BIL) şirkəti tərəfindən Ceyhan neft terminalından 4 mlrd. 232 min 552 barel neft yola salınıb.

Qeyd edək ki, 2006-cı ilin iyun ayında istismara verilən BTC kəməri ilə Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlarında hasil edilən neft idxal edilir. Bundan başqa, kəmər vasitəsi ilə digər istehsalçıların nefti də Türkiyə ərazisinə göndərilir. BTC boru kəmərinin Azərbaycan və Gürcüstan ərazilərində yerləşən hissələrinin operatoru BTC Co.-nun səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə BOTAS International Limited (BIL) şirkətidir.

Məlumata görə, hesabat dövründə terminaldan 5 250 tanker neft ilə yüklənilib və yola salınıb.

Qeyd olunur ki, 2022-ci ildə Ceyhan neft terminalından 224 mln. 388 min 520 barel neft 305 tankerə yüklənilərək göndərilib. 2021-ci ildə BTC ilə dünya bazarlarına 200 mln. 467 min. 463 barel neft çıxarılıb.

## TARİXİN TOZLU SƏHİFƏLƏRİNDƏN GÜNÜMÜZƏ UZANAN VASSALLIQ

Tarix boyu insanlığın qarşılaşdığı bir sıra problemlər olub, var və olacaq. Həyat, yaşamaq, artmaq davam etdikcə bu problemlər də var olacaqdır. Tarix boyu ölkələr arasındakı siyasətin nəticəsi olaraq vassallıq meydana gəlmişdir. Maddi və siyasi yöndən üstün olan ölkələr digər kiçik, təbii sərvəti olmayan ölkələr üzərində vassallıq edir, onları özlərindən asılı vəziyyətə gətirirdilər. Bu kimi səhnələr günümüzdə də davam etməkdədir, ancaq bu sistem daha modern şəkildə davam etməkdədir. Tarixə dönüb baxdığımız zaman medianın daha zəif olduğu zamanlarda, yəni daha geniş inkişaf etmədiyi zamanlarda vassallıq siyasi yöndən daha aktiv idi. Demək olar ki, günümüzdə vassallıq həyatın bir çox sahəsində sürətlə inkişaf etməkdədir, hətta məişət həyatına qədər genişlənmişdir. Günümüzdə həyatın çox hissəsində bu səhnələrə şahid oluruq.

Son dövrlərin sağalmaz yarası olan vassallıq insanların ən dəyərli olanını əlindən almışdır. İnsanı insan edən, ayaqda saxlayan, insana olğunluq verən, yetişdirən, insanı irəliyə aparan onun düşüncəsidir. Bu gün çox böyük təəssüf hissi keçirərək qeyd etmək istərdim ki, insanın düşüncəsi də artıq vassallıqdan nəsibini almışdır. Bunun günümüzdə yayılmasının səbəbi mediadır. Tarixdə media bu qədər inkişaf etməmişdir və insanların düşüncələrinə təsir etmək üçün çox ciddi fəaliyyətlər lazım idi, 25-ci kadr, subliminal mesajlar kimi, hansı ki, bunların tarixi 1800-cü illərə dayanmaqdadır. Amma artıq bu kimi əziyyətli və xərcli işlərə ehtiyac qalmadan media vasitəsi ilə asanlıqla bunu etmək mümkündür.

İnsan oğlunun həyatına internet girdiyindən bu yana bir çox dəyişikliklər yaşanmışdır, bu, danılmazdır. Ancaq unudulmamalıdır ki, faydalı olan bir şeyin mütləq zərəri də vardır. İnternet də öz faydalı yönü ilə gözlərimizi qamaşdırarkən zərərli yönlərinə nəzər yetirməyimizə imkan vermir. İnternetin gətirdikləri ilə götürdüklərini müqayisə etsək elm və texnologiya yönündən qazanmış olsaq da, mənəvi və zehni olaraq, əfsuslar olsun ki, geriləməkdəyik.

İnternetin inkişaf etməsi insanların fikir və iradələrinə, düşüncələrinə daha asanlıqla təsir edə bildi. İnsan oğlunun düşünmə qabiliyyəti hiss olunacaq səviyyədə zəiflədi və düşünməyən beyinlər başqalarının düşüncəsinə ehtiyac duymağa başladı. Və düşünmə zəifliyi meydana gəldi. Başqalarının düşüncəsinə ehtiyac o qədər artdı ki, hətta gündəlik həyatda da buna ehtiyac duyuldu. Bu zaman nə baş verdi? Düşüncə zəifliyi əmələ gələn kimsələr başqalarının düşüncəsi ilə başqalaşmağa başladılar və beləliklə günümüzdə "düşüncə vassallığı" adlı ciddi bir problemlə qarşılaşmaqdayıq.

Bəzən insan o qədər təəccüb hissi keçirir ki, baxırsan, görünüşdə insan var, yuxarı baxırsan insan olaraq idarə etmək üçün baş da yerindədir, lakin başın içində beyin, zehin, düşüncə varmı-yoxmu, görə bilmədiyimizdən qarşıdakı insanı görünüşə görə insan adlandırırsan, lakin davranış olaraq daşıdığı insanlıq kimliyini yansıtmadığının şahidi olursan. Bu zaman qaşlara çatılmaqdan başqa bir iş düşmür.

Gündəlik həyatda və eləcə də iş, ailə həyatında nə, necə, nə üçün suallarını özümüzə ünvanlamağı bacarmalıyıq.

İnsanlar fərd olaraq doğulur, yetişir şəxsiyyət olur, daha sonra cəmiyyətə qarışır və cəmiyyətin bir hissəsinə çevrilir. Cəmiyyətə çevrilən bizlər düşünmə, fikirləşmə, davranma, sorğulama qabiliyyətimizi itirməməliyik. Görün bizlər bunları itirərsək cəmləşib cəmiyyəti əmələ gətirdiyimizdə o cəmiyyətin halı necə olar. Fərd olaraq gəldiyimiz bu dünyada fərd olaraq qalmayıb cəmiyyətə çevrildiyimiz üçün düşünmə qabiliyyəti çox mühümdür. Düşünmə qabiliyyəti olmayan cəmiyyət başqa cəmiyyətlərin düşüncələrinə ehtiyac duyar və başqalarının düşüncələri sayəsində başqalaşar. O zaman bizim milli, mədəni, mənəvi, irsi kimliyimizdən əsər qalmaz. Yetişən nəslin də bu şərtlər daxilində yetişdiyini düşünsək "biz"dən həyatda və cəmiyyətdə bir əsər qalmaz.

Var ola bilmək üçün "biz" olmağı və "biz" qalmağı bacarmalıyıq.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## MƏKTƏB DİREKTORLARI ÜÇÜN İMTAHAN 22 YANVARDA ELEKTRON QAYDADA KEÇİRİLƏCƏK

Gürcüstanın Təhsil və Elm Nazirliyi ictimai məktəb direktoru olmaq istəyənlər üçün müsabiqənin ilk mərhələsinə başlayır. Qeydiyyat başa çatdıqdan sonra məktəb direktoru olmaq istəyənlər üçün imtahanın keçiriləcəyi tarix və imtahan müddəti müəyyən olunub.

Belə ki, imtahan elektron qaydada 2023-cü ilin 22 yanvarında bir sessiya olaraq keçiriləcək. İmtahan saat 12:00-da başlayacaq.

Direktor olmaq istəyənlər qeydiyyat üçün mərkəzə imtahan başlamamışdan bir saat əvvəl getməlidirlər və şəxsiyyət vəsiqəsi, yaxud pasport təqdim etməlidirlər. Gecikmə, şəxsiyyət vəsiqəsinin, yaxud pasportun olmadığı halında aplikantlar imtahana buraxılmayacaqlar.

İmtahanda 2020-ci il fevralın 3-dən fevralın 17-nə kimi, 2022-ci il oktyabrın 24-dən dekabrın 16-na kimi qeydiyyatdan keçmiş, ərizə ilə qeydiyyatın ləğv edilməsini və pulun geri qaytarılmasını tələb etməmiş şəxslər iştirak edə bilərlər.

İmtahan müddəti 5 saatdır. Görmə problemi olan iştirakçılara əlavə olaraq 30 dəqiqə vaxt veriləcək. Görmə problemi olan şəxslər imtahan vaxtının uzadılması məqsədilə Təhsilin İdarə Edilməsi üzrə Məlumat Sisteminə əvvəlcədən müraciət etməli və görmə ilə bağlı tibbi nəticə ilə birlikdə ərizə təqdim etməlidirlər.

İmtahan keçiriləcək mərkəzlər haqqında məlumat 2023-cü ilin 17 yanvarında “directors.mes.gov.ge” veb-səhifəsində yayımlanacaq.

İmtahandan uğurla keçənlər sertifikatlaşdırmanın növbəti – müsahibə mərhələsinə keçəcəklər.

Xatırladaq ki, direktor olmaq istəyənlər üçün imtahan proqramı və test nümunələri 2022-ci ilin 24 oktyabrından **“directors.mes.gov.ge”** veb-səhifəsində yerləşdirilib. Keçirilmiş vebinarların qeydlərinə isə **“el.ge.webinars”** səhifəsindən baxa bilərsiniz.

Gürcüstanın Təhsil və Elm Nazirliyinin prioritetlərindən biri məktəb direktoru vəzifəsinə sağlam müsabiqə şəraitində yüksək ixtisaslı və layiqli kadrların cəlb edilməsidir.

Bu istiqamətdə son illərdə bir çox mühüm addımlar atılıb. Həmçinin nazirlik direktor və məktəbin idarəsinin yeni konspesiyasını hazırlayıb. Həmin konsepsiya əsasında da 2022-ci ildə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində məktəb direktoru üçün yenilənmiş standart hazırlanıb.

## MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI QAYDASINDA DƏYİŞİKLİK EDİLİB



İctimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtləri qaydasında dəyişiklik edilib. Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkelinin imzaladığı sərəncam 2023-cü ilin 1 yanvarından qüvvəyə minib.

**Dəyişikliklərə əsasən, statusu olan müəllimlərin və xüsusi müəllimlərin əməkhaqqı artırılır:**

a) Baş müəllimlər üçün 795 lari;

b) Aparıcı müəllimlər üçün 1 175 lari;

c) Mentor statusu olan müəllimlər üçün 1 475 lari müəyyən edilib.

**Xüsusi müəllim statusu olanlar üçün tam əlavənin miqdarı:**

Xüsusi baş müəllimlər üçün 795 lari;

Xüsusi aparıcı müəllimlər üçün 1 175 lari əlavə müəyyən edilib.

**Xüsusi baş müəllimlər üçün sxemlə müəyyən edilmiş əlavə:**

a) Xüsusi təhsilə ehtiyacı olan 1 şagirdin olduğu halda 595 lari;

b) Xüsusi təhsilə ehtiyacı olan 2 şagirdin olduğu halda 645 lari;

c) Xüsusi təhsilə ehtiyacı olan 3 şagirdin olduğu halda 695 lari;

ç) Xüsusi təhsilə ehtiyacı olan 4 şagirdin olduğu halda 745 lari;

d) Xüsusi təhsilə ehtiyacı olan 5 və daha artıq şagirdin olduğu halda 795 lari.

**Xüsusi aparıcı müəllimlər üçün sxemlə müəyyən edilmiş əlavə:**

a) Xüsusi təhsilə ehtiyacı olan 1 şagirdin olduğu halda 775 lari;

b) Xüsusi təhsilə ehtiyacı olan 2 şagirdin olduğu halda 875 lari;

c) Xüsusi təhsilə ehtiyacı olan 3 şagirdin olduğu halda 975 lari;

ç) Xüsusi təhsilə ehtiyacı olan 4 şagirdin olduğu halda 1 075 lari;

d) Xüsusi təhsilə ehtiyacı olan 5 və daha artıq şagirdin olduğu halda 1 175 lari.

## DİREKTORLAR ÜÇÜN İMTAHANA ÖTƏN İL 997 APLİKANT QEYDİYYATDAN KEÇİB



İctimai məktəb direktoru olmaq istəyənlər üçün müsabiqəyə ümumi olaraq 3 046 aplikant qeydiyyatdan keçib. Bu barədə Təhsilin İdarə Edilməsi üzrə Məlumat Sistemi 2022-ci ilin yekun sənədində qeyd edib.

“Direktorlar üçün sertifikat imtahanına 2020-ci ildə qeydiyyatdan keçən aplikantların sayı 2 049, 2022-ci ildə qeydiyyatdan keçənlərin sayı isə 997 nəfərdir. Ümumilikdə 2020-ci ildə qeydiyyatdan keçmiş şəxslərin 117 nəfəri qeydiyyatı ləğv etməyi və imtahan üçün ödədiyi pulun geri qaytarılmasını tələb edib”, – deyə sənəddə qeyd olunub.

## DİGƏR ÖLKƏLƏRİN MƏKTƏBLƏRİNDƏ HANSI XARİCİ DİLLƏR ÖYRƏDİLİR?




Orta məktəbdə xarici dilin tədrisi yeniyetmələrin gələcək peşələrində uğur qazanmaları üçün vasitələrdən biridir. Ona görə də bütün dünyada xarici dilin tədrisinə böyük diqqət yetirilir.

Maraqlıdır, digər ölkələrdə şagirdlər hansı dilləri öyrənirlər? Məktəblərdə hansı dil daha məşhurdur?

Aşağıda bir neçə ölkə və həmin ölkələrin orta məktəblərində tədris olunan xarici dillərin siyahısı ilə tanış ola bilərsiniz:

**İngiltərə** – fransız, alman, ispan dili.

İngiltərədə şagirdlər dilin tədrisinə məktəbdə ikinci pillədən başlayırlar. Həmçinin ikinci dilin öyrənilməsinin könüllü olması faktı da maraqlıdır.

Dövlət alman və fransız dillərindən başqa xarici dilləri bilən şagirdləri dəstəkləyir və dilin tədrisində onlara hər cür köməklik etməyə hazırdır. Ekspertlərin qiymətləndirməsinə görə, ərəb və çin dili ölkəyə lazım olan dillərdəndir. Güman ki, gələcəkdə bu dillər məktəblərdə, eləcə də ali təhsil müəssisələrində və böyüklər arasında populyar olacaq.

**Almaniya** – ingilis, fransız, latın, italyan, holland, polyak, ispan dili.

Almaniyada dillərin öyrənilməsi populyardır. Ona görə də hələ uşaq bağçasından uşaqlara eyni zamanda iki xarici dil tədris olunur. Gördüyünüz kimi, dil seçimi zəngindir. Öyrəniləcək dilin seçimi təhsil müəssisəsinin coğrafi mövqeyindən asılıdır. Almaniyada məktəb təhsili bütün pillələrdə federal torpaqların cavabdehliyinə daxildir, ona görə də məktəblərdə dilləri öyrənmək üçün vahid meyarlar yoxdur.

Məktəb şagirdləri xarici dilin öyrənilməsinə həftədə 6 saatdan 8 saata qədər vaxt ayırırlar. Almaniyada xarici dilləri bilmək insana yalnız layiqli peşəyə sahib olmağa deyil, həmçinin karyerada və hərtərəfli inkişafa kömək edir.

Maraqlıdır ki, Almaniyada müəllimlər dillərin öyrənilməsi zamanı tədrisin kommunikativ medotlarına üstünlük verirlər. Ona görə də almanların əksəriyyəti ikinci dildə yaxşı danışa bilirlər.

**ABŞ** – ispan, fransız, alman, latın, yapon dili.

Amerika Birləşmiş Ştatlarında ispan dilinin öyrənilməsi məşhurdur. ABŞ Meksikadan sonra daimi immiqrasiyaya görə ispandilli əhalinin sayında dünyada ikinci yerdədir.

Ölkədə məşhurluğuna görə isə ikinci yeri fransız dili tutur. Aşağı siniflərdə şagirdlər xarici dil öyrənmirlər. Orta məktəb şagirdləri isə istədikləri xarici dili seçə bilirlər. ABŞ məktəblərində təhsil səviyyəsi kifayət qədər yüksəkdir, amma gənclər əksər hallarda qeyd olunan fənnə qarşı böyük maraq göstərmirlər.

**Çin** – ingilis, fransız, rus, alman dili.

Çinlilər üçün ingilis dilini öyrənmək vacibdir. İngilis dili ali təhsil almaq və karyerada irəliləmək üçün mütləqdir.

İngilis dilinin tədrisi məktəblərdə üçüncü sinifdən başlayır. Buna görə ölkədə dilləri daha erkən mərhələdə öyrədən özəl məktəblər məşhurdur. Belə məktəblərdə uşaqlar adi qaydada eyni zamanda bir neçə dil öyrənirlər. Çox öyrədilən dillər arasında fransız, rus və alman dilləri də var.

*Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# QƏBİRİSTANLIQ



Qəbiristanlıq elə bir yerdir ki, ölümün varlı, kasıb, yaxşı, pis, güclü, zəif, sağlam, xəstə demədən hamı üçün eyni olduğuna bir daha əmin olursan. Ona görə də dəfn mərasimləri, qəbir ziyarətləri insanlarda bədbin əhval yaradır və həyatı sorğulamağa, cavabsız suallarla boğuşmağa zəmin yaradır.

Dünyadakı bütün xalqların özlərinə məxsus inancları, dəfn etmə adət-ənənələri var. Məsələn, zərdüştlük dünyanın ən qədim dinlərindən biridir. Qədim zamanlarda zərdüştlərin inancına görə, təbiəti korlamamaq üçün ölüləri yandırmaq, ya da torpağa basdırmaq olmazdı. Onları yalnız təbiətin səssizliyində yırtıcı quşlara əmanət etmək olardı. Həmin ərazi "səssizlik qalası" kimi tanınırdı. Sonradan bu qalanın məzarlıq kimi istifadəsi qadağan olunur.

Maraqlı inanclardan biri də boliviyalıların inancıdır. Onlar inanırlar ki, torpaq dəfn olunan şəxsin günahlarını özünə hopdura bilir. Məhz bu səbəbə görə vəfat edən şəxsi öncə qəbiristanlıqdakı sərdabəyə yerləşdirirlər; yeddi ildən sonra sərdabədən çıxarılan cəsəd qəbiristanlığın ərazisində torpağa tapşırılır. Dəfndən iyirmi il keçdikdən sonra cəsəd yenə qəbirdən çıxarılır və qohumlarına təhvil verilir. Onlar da cəsədi başqa qəbiristanlıqda dəfn edirlər.

Bizdə isə əvvəlcə üç gün camaat yas evinə gedib-gəlir, ev yiyəsindən qulluq gözləyirlər. Ölünü basdırdıqdan sonra da ehsanından yeyib, süfrənin bolluğundan-azlığından; yas pulunun az yığılıb, çox yığılmasından; kim gəlmişdi, kim gəlməmişdidən danışırlar. Şər qarışana kimi oturub sağ ikən mərhumun arxasınca danışanlar, öləndən sonra xoş sözlər deyir, onu yaxşı insan kimi xatırlamağa çalışırlar. Habil Əliyev demiş, öləndən sonra onu elə tərifləyirlər ki, adamın sağ ikən ölməyi gəlir.

Ölüyə bahalı daş qoyulmalıdır deyib imkana, vəziyyətə baxmadan bir yolunu tapıb məzar daşı düzəltdirirlər.

Mən və ailəm qəbiristanlıq yaxınlığında yaşayırıq, bunun hekayəsi bir az uzundur. Babamla nənəm əlli il bundan öncə buranı özlərinə yurd edib, ev tikiblər. İllər keçdikcə burada evlərin sayı artıb, məhlələr salınıb. Məhlənin yuxarısında isə qəbiristanlıq yerləşir. Əsas yola, mərkəzə getmək üçün bu yolu istifadə edirdilər, balaca qapılar var idi. Elə biz də on iki il ötür ki, məktəbə getmək üçün hər gün həmin o balaca cığırdan istifadə etmişik.

Bizim qəbiristanlıq yaxınlığında yaşadığımızı öyrənən hər kəs bizdən soruşur ki, bəs qorxmursunuzmu hər gün yüzlərlə ölünün olduğu bir yerdən keçməyə. Burada qorxulacaq bir şey yoxdur. Bizim üçün yad olanlar öz doğmaları üçün çox dəyərlidir, bunu bilərək onlara zərər vermədən sakitcə keçib getməyimizin kimə nə ziyanı vardır. Əksinə, hər gün oradakı insanları görərək hər kəsin son mənzili burası olduğunu xatırladır insana. "Məzar bu gün yaşayanların sabahkı evidir" – bunu unutmamalıyıq, amma təəssüf ki, düşünməyənlər var...

Bəzi öz ölüsünə belə hörmət qoymayan şəxslər oradan oğurluq etməyi özlərinə, öz mənliklərinə sığışdırmağı bacarırlar. Gecədən qəbir daşını oğurlayıb, dəyişdirib başqasına məzar daşı olaraq satmağı; güldanları, bahalı heykəlləri yerindən çıxarıb aparmağı bacarırlar. Bunlar azmış kimi, qəbiristanlıqdan otaracaq olaraq istifadə etməyə çalışanlar da var.

Bir neçə gün öncə dərsdən qayıdarkən artıq qaranlıq düşmüşdü, qəbir əhlini salamlayıb qəbiristanlığa daxil olanda orada otlayan inəkləri gördüm, bu inəkləri bura ötürən necə düşüncəsiz biridir deyə çox hirsləndim. Heçmi düşünmür ki, mənim də qohumum, yaxınım var bu qəbiristanlıqda, bu ölülərin arasında?.. Doğrudan da başa düşmürəm bu necə hörmətsizlikdir. Sən oradan oğurladığın məzar daşını başqasına satıb pulunun üstünə pul qoymaqla və yaxud otardığın inəyin südünü içməklə nə qazandığını düşünürsənmi? Sultan Süleymana qalmayan dünya sənəmi qalacaq?..

"Qoy mənim tabutumu ən yaxşı həkimlər aparsın. Hamı bilsin ki, hətta onlar da ölümün qarşısında acizdirlər. Qəbrə çatana qədər yolda hamıya qızıl paylayın. Qoy başa düşsünlər ki, nə sərvət qazanırsan qazan, bu dünyada qalır. Əllərim tabutdan çöldə qalsın, qoy hamı bilsin ki, Qanuni Sultan Süleyman belə bu dünyadan əliboş getdi".

**Aytən FƏTULLAYEVA**
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# ZAMAN



İnsan üçün bu dünyadakı ən dəyərli xəzinə zamandır...

İnsanlar həyatda etdikləri ilə xatırlanırlar. Yaşarkən zamandan nə qədər yaxşı istifadə etsək bir o qədər yaxşı işlər etmişik deməkdir. Zamanı doğru istifadə etmək insanların əlindədir. Əgər zamanı doğru istifadə etməsək günün sonunda peşman ola bilərik.

Bəzən, ola bilər ki, həyat planlaşdırdığımız kimi olmasın, zaman bizimlə ayaqlaşmasın...

Bu yaxınlarda rəsm yarışması var idi. Müəllimim qatılmağımı çox istəyirdi, həmçinin özüm də çox istəyirdim. Ancaq müəllimə zamanımın olmadığını və buna görə yarışmaya qatıla bilməyəcəyimi dedim. Müəllimim mənə "əgər zamandan doğru istifadə edərsənsə yarışmaya qatıla bilərsən" dedi. Mən isə müəllimimin dediyini düşünüb, zamanımı doğru bir şəkildə planlaşdıraraq yarışmada iştirak edə bildim. Qalib ola bilməsəm də, zamanımı doğru dəyərləndirdiyim üçün xoşbəxtəm.

Bu həyatda hər gözəl şeyin sonu olduğu kimi zamanın da sonu vardır...

Əgər zaman olmasaydı necə olardı deyə heç düşünmüşükmü? Zaman olmasaydı insanlar yaşamağın, həyatın dəyərini bilməzdilər; həyat çox sadə və maraqsız olardı.

Həyatda hər şey yolunda getməyə bilər, sevdiklərimizi itirə bilərik, çox istədiyimiz nələrdənsə vaz keçmək məcburiyyətində qala bilərik, ancaq zaman insan üçün ən yaxşı dərmandır.

Dostlarımızı, yaxınlarımızı zaman keçdikcə daha yaxşı tanıyırıq. Belə bir söz vardır: tez qurulan dostluqlar az ömürlü olar. Bu, həqiqətən də belədir. İnsanların gerçək xasiyyətlərini zamanla daha yaxşı tanıyırıq.

Bir gənc olaraq mənə çox pis təsir edən bir məqam var: həmyaşıdlarım həyatı sadəcə günüm, saatım, zamanım keçib getsin deyə yaşayırlar; bilmirlər ki, axıb su kimi gedən zaman bir daha geri dönməyəcək, hədər olan gənclik bir daha geri qayıtmayacaq...

**Alina Fətullayeva**
Qardabani 3 nömrəli ictimai məktəbin 12-ci sinif şagirdi

# OXUMAĞI SEVMƏK...



Biz bilirik ki, hər bir insan dünyaya gələrkən, necə deyərlər, heç nə anlamır; nə danışa, nə də yeriyə bilir. Yəni etdiyi hər bir davranışı müəyyən bir yaşa kimi şüurlu şəkildə etmir. Zaman keçdikcə isə bu bacarıqların hamısına yiyələnmiş olur. Çünki insan böyüdükcə öyrənməyə, çalışmağa, bir sözlə, özünü daha çox inkişaf etdirməyə çalışır. Ona görə ki, biz dünyada yaşadığımız müddətcə savadlı olmalıyıq. Savadlı olmaq üçün isə təhsil almalıyıq.

Təhsil dedikdə hər kəsin ağlına ilk öncə məktəb gəlir. Təhsil sadəcə bizim məktəbdə keçdiyimiz fənlərdən ibarət deyil. Eyni zamanda həyatda gördüklərimizin, eşitdiklərimizin, yaşadıqlarımızın və s. hamısı təcrübədir. Məsələn, biz hər hansı bir səhv etdikdə bunun düzgün davranış olmadığını başa düşür və bir daha etməməyə çalışırıq.

Biz ilk təhsilimizi uşaq baxçasında alırıq. Orada ən elementar biliklər öyrənilir – saymaq, rənglər, fəsillər və sair. Daha sonra isə ibtidai sinfə başlayırıq. İbtidai sinifdə oxumağı, yazmağı öyrənirik, əlimiz qələm tutur.

Müəllimim bizə hər zaman belə deyərdi: "Ev tikmək üçün birinci bünövrəsi qoyular, sonra ev tikilər". İbtidai sinif də məhz ev kimidir. İlk öncə təməli qoyulur, sonra üzərinə təhsil inşa edilir. Orta məktəbdə biz artıq daha çox sosiallaşır, cəmiyyət içinə qarışırıq.

Ən sonunda isə bir çoxlarımızın xəyalı olan universitet həyatı başlayır. Ən azı 4-5 il universitetdə təhsil alıb bitirdikdən sonra isə seçdiyimiz ixtisas üzrə işləməyə başlayırıq.

Çoxları üçün 12 il orta məktəbdə, 4 il universitetdə oxumaq çətin gəlir. Elə ən çox eşitdiyim cümlə də budur: "12 il məktəbdə oxuduqdan sonra bir də 4-5 il universitetdəmi oxuyacaqsan? Bu qədər oxuduğun yetmirmi?" Ancaq universitetdə oxumaq istəyənlər təhsillərini zirvəyə çatdırmaq istəyirlər və bunun üçün də əllərindən gələnin ən yaxşısını edib universitetə qəbul olmağa çalışırlar. 12 illik orta təhsildən sonra əlavə 4-5 il ali təhsil almaq yük deyil, gələcəyə sağlam addım atmaqdır. Və bu addımı atdıqdan sonra bizim ali təhsil həyatımız başlayır.

Bizim təhsilimiz uşaq bağçasında başlayıb universitetdə bitir. Əgər inkişaf etmiş bir cəmiyyətdə yaşamaq istəyiriksə yaxşı təhsil almalıyıq. Şarl Lui Monteskyönun dediyi kimi: "Oxumağı sevmək, həyatdakı cansıxıcı saatları ən gözəl saatlarla dəyişməkdir".

**Validə Fətullayeva**
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
### (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

(əvvəli ötən sayda)

Dünya xalqlarının folklorunu gözdən keçirsək, müxtəlif hadisələrin bu cür stereotip sxemləri və baxışları bizə tez-tez rast gəlir. Hər şeydən öncə bu, nağıllarda nəzərə çarpır ki, bu da onun quruluş strukturu ilə şərtlənir. Bununla əlaqədar olaraq daha sözümü davam etdirməyəcəyəm, lakin bir şeyi qeyd edirəm: ağzıgöyçəklər üçün mübahisə mövzusu ola bilər, ümumiyyətlə, insan və onun düşüncəsinin modeli, qarşılıqlı fərqə baxmayaraq, inkişafın müəyyən pilləsində identik və bənzər dünya baxışı ilə qidalanır. Təbiidir ki, xalqlar arasında, ələlxüsus, qarşılıqlı qonşu tayfalarında xalq deyimi, atalar sözü, idiom, aforizm, isrətsə də bu və ya digər hadisəyə münasibət və onun dərki əvəzlənir və qarşılıqlı münasibətdə inkişaf edir.

Lakin yuxarıda gətirilən stereotip müqayisə bu kontekstin daha dərin təhlili zamanı bizi əmin edir ki, birincisi, oğuz xalqlarının yaddaşında erkək pələngin və şirin obrazı yenilməzlik rəmzi olaraq qalmışdır, bu da ta qədimlərdə, ovla bilavasitə əlaqəsi olan zamanlar yaranmışdır. Güman ki, buna görə də onların mənşəyinin yerinin (Ağ qoyun və Aq saz məkanlarının) konkretləşdirilməsidir ki, bu da onların real olaraq mövcudluq faktından xəbər verir. İkincisi də, ümumiyyətlə, şir, pələng, ağ canavar və şahin folklor bədii söz yaradıcılığında artıq yenilməzliyin əhəmiyyətini kəsb etmişdir və müvafiq olaraq Qazan onların cinsinin mənşəyinə irad söyləyir. Mühüm cizgini unutmayaq: bu çöl heyvanlarının, istərsə də quşlarının təhlükəsi yalnız onunla kifayətlənir ki, asudə ceyranların, xam atların, ağ qoyunun və alabəzək və qara qazların məhv edilməsi istəyi öz-özlüyündə artıq qarşı duran düşmənin çəhdi demək idi. Çünki gətirilən çıxarışdan və ümumi eposun süjet kərgahı semantikasından xəbər verir ki, o dövrlər köçəri tayfaların yaşayış imkanı məhz elə yuxarıda sadalanan ev heyvanları və quşlar idi. Qısası, bu heyvanların kökünün kəsilməsi, yəni yaşayış şəraitlərinin məhvi, nə az, nə çox, tayfanın və camaatın məhvi demək idi. Halbuki təhlil olunan kontekstin dərk edilməsi mənə ixtiyar verir ki, yekun nəticə çıxarım: O ümumi metafora səviyyəsində oxunmalıdır ki, bu da iki-üç kəlmə ilə belə verilə bilər: Hər şeyə qadir Qazan düşmənin iqtisadi, eləcə də fiziki məhvinə nail olur.

Müxtəlif xalqların folklorunda bu cür stereotip tayfaların, istərsə də deyimlərin mövcudluğuna gəldikdə, bunun nümunələri təhlil olunan eposda da bizə rast gəlir. Uzağa getməmək üçün igid oğlanlar adaxlılarını axtaran zaman ox atırdılar və oxun düşdüyü yerdə öz talelərini axtarırdılar. Bu motiv barədə artıq yuxarıda söhbər açdım və sözümü daha davam etdirməyəcəyəm.

Bu dəfə ordusunu dağıdanları axtarmağa çıxan Qazan xanın su ilə, qurdla və itlə söhbəti daha çox diqqətə layiqdir. İlk öncə, çağlayaraq qayalardan çıxan, ağac gəmiləri atıb-tutan, Həsənlə Hüseynin həsrəti, bağla bostanın zinəti, Ayişə ilə Fatimənin baxışı, şahanə atların içdiyi, qızıl dəvələrin gəlib keçdiyi, çevrəsində ağ qoyunların yatdığı suya üz tutur. Məhz elə ondan soruşur: "Ordumun xəbərin bilürmisin, degil mana! Qara başım qurban olsun, suyum, sana!" Bundan sonra bu kəlmə gəlir: "Su qaçan xəbər versə gərək?!" Sonra Qazan xan qaranlıq axşam olanda günü doğulan, qar və yağış yağanda ər kimi duran, qaracıq atları kişnəşdirən, qızıl dəvə gördükdə inləşdirən, ağca qoyun görəndə quyruğuyla qamçı çəkən, arxasıyla vurub, bərk ağılın ardını sökən, burma-axta kök qoçları alıb-tutan, qanlı quyruq üzüb çap-çap udan, ulaşması köpəkləri təşvişə salan qurda üz tutur. Bu silsilə də yuxarıda gətirilən xahişlə, hədə ilə, kəlmə ilə bitir ki, bu, şeirlər silsiləsinin nəqaratını təşkil edir.

Cavabsız qalmış Qazan itin arxasınca düşür. O da onu Qaraca Çobanın yanına aparır ki, bəy də onu belə xarakterizə edir: "Qaranqu axşam olanda qayğulu çoban! Qarla yağmur yağanda çaqmaqlu çoban". Çoban isə, əksinə, onu yalançı çıxardır və kafirlərin onun arvadını, oğlunu və qoca anasını necə əsir götürdüklərinin və onları həyasızcasına qabaqlarına qatdıqlarının və onun var-dövlətini apardıqlarının mənzərəsini çəkir (Elə orada, səh. 55-56).

Bu geniş çıxarış bir neçə görüş dairəsinə görə diqqətə layiqdir: Birincisi, ozan ənənəyə əməl edir və yayılan stereotip süjetə əməl edir ki, ona da uyğun olaraq axtaran kəs suyun, istərsə də təbiətin başqa ünsürlərinin vasitəsilə axtarış obyektinin durumunu, vəziyyətini bilmək istəyir. İkincisi də, bu halda ozan bilir ki, müraciət obyektləri: su, qurd və köpək heç nəyə cavab verə bilmirlər və buna uyğun olaraq qanuniləşmiş etiketi pozur və onların cavablarına diqqət çəkmir, eləcə də axtaranın baxış dairəsini, baxışını, müraciət olunanı önə çəkir. Bu dəfə mənim üçün eposun qəhrəmanlarının təsəvvür edilməsində ümumi qədəmlərini qoyan və yayılan məhz elə bu baxış dairəsi diqqətə layiqdir. Hər şeydən öncə, çay, istərsə də su onunla bəllidir ki, nəinki çox şey görüb və çox şeyi bilir, eləcə də Həsən və Hüseynin həsrətidir, Ayişə ilə Fatimənin baxışıdır ki, bu da islamın ardıcıllarının, ələlxüsus isə, şiə imamlarının ardıcıllarının inamı ilə yaradılmışdır. Bundan başqa bu silsilə onunla da diqqətə layiqdir ki, həyatın məişət cizgiləri ilə yekunlaşdırılıb. Belə, məsələn, su bağla bostanın zinəti, şahanə atların içdiyi, qızıl dəvələrin gəlib keçdiyi və çevrəsində ağ qoyunların yatdığıdır. Bütün bunlar isə aydınca ondan xəbər verir ki, estetik emosiyanın oyadılmasını oğuzların gündəlik həyatı şərtləndirir. Eləcə də ozanın gözü ilə görünən qurdun siması: qaranlıq axşam olanda günü doğulan, qarla yağış yağanda ər kimi duran, qaracıq atları kişnəşdirən, qızıl dəvə gördükdə inləşdirən, ağca qoyun görəndə quyruğuyla qamçı çəkən, arxasıyla vurub, bərk ağılın ardını sökən, burma-axta kök qoçları alıb-tutan, qanlı quyruq üzüb çap-çap udan, ulaşması köpəkləri təşvişə salan qurd. Sözsüz ki, bu da qurd təbiətinin oğuz igidi tərəfindən qavranılmasıdır. Gələn yadı, oğrunu qorxudan, hürməyi ilə qorxudaraq hürküdən köpəyə gəldikdə, bu da başa düşülən, məişət praktikizminin baxışı ilə yapılmışdır. Və nəhayət, (su, qurd və köpək) nə cavab verməlidir, kəlməsi o fikirlə yüklənmişdir ki, bu cavab verməməklik süjetin inkişafını gərginləşdirir və bir növ ona dramatizmlilik kəsb etdirir, bu da, Qazan xana çobanın onun ordusunun və ailəsinin yağmalanması mənzərəsini təsvir edəndə, o huşunu itirir, dünya-aləm başına qaranlıq olanda kulminasiyaya çatır. Bu isə bədbəxtliyi hiss etdirici finaldır ki, ozan mərhələ şəklində bizə çatdırmağa cəhd edirdi.

Artıq qeyd etdiyim kimi, təhlil olunan eposun təcəssümlülüyü oğuzların əsrlər boyu əsasən köçəriliyinin və yaşayış yerinin əhatə edildiyi təbiətə, coğrafi məkana, istərsə də tarixi zamana əsaslanır. Lakin bu abidənin yekun redaktəsini və yazılı xeyir-duasının verilməsini, əgər fəaliyyət yerinin coğrafi məkanını və tarixi arealı nəzərə alsaq, gərək ki, Gürcüstanın yaxınlığında yerləşən ölkədə, ələlxüsus, Azərbaycanda baş vermişdir. Bu baxış dairəsi o fakt ilə etibarlıdır ki, "Dədə Qorqud"da sünni, şiə mövqeyi aydınca özünü büruzə verir. Bu barədə artıq dəfələrlə öz fikrimi bildirdim və bunun üzərində daha dayanmayacağam. Lakin yenə də təkrar etməliyəm ki, "Dədə Qorqud"un təcəssümlülüyünün gözə dəyən spesifikliyi bilavasitə gözlə görmə ilə dərk edildiyi reallıqdır və məişət həyatı ilə əldə olunan təcrübə və müdriklikdir. Budur, elə götürək bu nümunəni:

***"Sultanımız Qanturalı, qalxıb yerindən durmadınmı?***
***Qarayallı Qazılıq atını minmədinmi?***
***Arqubeldə, Ala dağda quş ovlayıb,***
***Atanın ev-eşiyinə qayıdan baş***
***Qaravaşları inək sağanda görmədinmi?***
***"Buğa, buğa!" dedikləri qara inəyin buzovu deyildirmi?***
***İgid ərlər sənin döyüşündən qorxurdu..."*** (Elə orada, səh. 135).

Gətirilən qoşma ovçuluq səhnəsinin xatırlanması ilə başlayır ki, bunu da təhlil olunan eposda ənənəvi, yayılmış passaj olaraq, istərsə də haşiyə olaraq hesab edə bilərik. Lakin bu səhnədən sonra məhz elə məişət, inəyin sağılması və buzovun nəvaziş səhnəsi gəlir ki, bunu da oğuz igidi gündəlik həyatda görürdü. Lakin ona məişət cizgisi olaraq diqqət yetirmir. Halbuki gerçək yaradıcılıq istedadı odur ki, bu əhəmiyyətsiz, praktiki davranış ümumiləşdirilsin və sənətin yüksəkliyinə qaldırılsın. Konkret halda ozan belə davranır, o özlüyündə əhəmiyyətsiz, ümum insan üçün və ələlxüsus, oğuz üçün, lakin gözlənilməz, sanki yerinə düşmədən gətirilən adi, gündəlik məişət səhnəsini xatırlayır. O, yeni semantik anlayış kəsb edir ki, bunu da bir-iki sözlə belə vermək olar: ovçuluğun çətinlikləri və döyüşçünün geri çəkilməməsi cəngavər oğuz üçün elə adi bir şey olmalıdır, inək sağmaq və buzovu əzizləmək kimi dərk edilməlidir. Bu vasitə ilə ozan igidliyi alçaltmır, eləcə də əksinə, onu ucaldır və gündəlik məişətin lazımi tələbi, istərsə də şərti səviyyəsinə qaldırır. Və yenə birini, ozan bu məişət səhnəsini gətirməklə real fakta, yəni sadəliyə estetik məftunluq verməyə çalışır ki, sadəlik aspektinin önə çəkilməsidir, başqa heç nə. Şəxsən məni bir oxucu kimi, sadəliyin məftunluğu heyran etdi.

Halbuki sadəliyin estetik axını, ümumiyyətlə, xalq ədəbiyyatını xarakterizə edir və heç də "Dədə Qorqud"un estetik arealı bu hisslərin dalğalarının bu çəkilməsindən məhrum deyildir. Yuxarıda artıq qeyd etdim ki, "Dədə Qorqud"un qəhrəmanlarının fəaliyyəti əsrlər boyu işlənib hazırlanan və onların həyat tərzini təşkil edən əxlaq məcəlləsi ilə müəyyən edilib. Müvafiq olaraq eposun bədii toxumasının çərçivəsinə çevrilən o həyati əşyalar, bu ailə, istərsə də döyüş silahları olsun, onların həyat tərzi ilə müəyyən edilən lazımi vasitələr, onların davranışını, zəhmətini şərtləndirən təbii hadisələr, heyvanlar, bitkilər olsun... Buna görə də hər şeydən öncə, söhbət rəngarəng (ağ, qırmızı, qara, ala) şami günlüyünün qurulmasından, ziyafət zamanı xalçaların döşənməsindən və müxtəlif içki qablarından, qonaqlar üçün malın kəsilməsindən və gözəl-gözəl, alagözlü qızlar tərəfindən onlara qulluq edilməsindən, döyüş zamanı onların silahlarından (qalxan, qılınc, nizə, ox-kaman, sapand və sair) və ovçuluq vasitələrindən və metodlarından gedir.

Bütün bunlar oğuz xalqının yaradıcılıq istedadının yaratdığı bədii aləmdə az-çox fərqlərlə təqdim olunub. Lakin xalq folklorunun spesifikliyi, illah da ki, orta əsrlərin eyniyyətinin estetik prinsipləri bu rəngkarlıq kətanının çəkilməsini kanonik qaydalarla nizama salır ki, bu da müəyyən mənada ona stereotip xarakterini kəsb etdirir.

(davamı gələn sayda)

***Gürcü dilindən tərcümə edən:***
***Mirzə MƏMMƏDOĞLU***

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## GEDİŞ-GƏLİŞ

### 27. QATARLARDAN GÖRÜNƏN MƏNZƏRƏLƏR



*(əvvəli ötən sayda)*

Niderlandda şəhərlərarası nəqliyyat kimi əsasən elektrik qatarlarından istifadə olunur.

Qatara biletim onlayn qaydada yarım saat əvvəl alınmışdı. Mənim qatara gecikmə ehtimalım daha çox idi, nəinki çatmam. Hava yağmurlu idi, hazırlaşıb evdən çıxmam, vağzala tanımadığım küçələrlə getməm də vaxtımı alır. Vağzal binasının qarşısında cərgələnmiş, sahiblərinin qatarla harasa getdiyi minlərlə velosipedin arasından vağzala daxil olmam cüzi də olsa məni gecikdirir. Mən Amersfoortun mərkəzi dəmir yolu vağzalına çatanda Rotterdama gedən qatarın yola düşməsinə vur-tut 3 dəqiqə qalmışdı. Bunu vağzal binasına daxil olarkən, divardan asılmış böyük saat mənə bir daha xatırladır. Əslində buna gərək də yox idi. O üzdən ki, əlimdən yerə qoymadığım telefonumun saatına da tez-tez nəzər saldığımı indi də yaxşı xatırlayıram. Turniketdə biletimi qeydiyyatdan keçirməm və özümün heç nəyə yaramayan hollandcamla kimdənsə perronun yerini dəqiqləşdirməm həmin üç dəqiqənin ən azından ikisinin əriməsinə səbəb olur. Mən artıq gecikdiyimi, qatara minə bilməyəcəyimi düşünürdüm ki, Amersfoort-Rotterdam qatarının yola düşmək üzrə olduğu elan edilir və mən perrondan qatara minən sonuncu sərnişin oluram. Bunu artıq qatarda yerimi rahatladıqdan sonra düşündüyümü də xatırlayıram.

Sözarası qeyd etməyim gərəkir ki, Avropada, Niderland da bura daxidir, ictimai nəqliyyat axsamadan, heç bir gecikmə-filan baş vermədən fəaliyyət göstərir. Avtobus, metro, tramvay və qatarların gecikməsi nadir hallarda, fövqəladə bir hadisənin baş verməsi ilə əlaqədar meydana çıxa bilər. Belə bir vəziyyətlə qarşılaşma ehtimalı isə yox dərəcəsindədir. Nədən ki, burada ictimai nəqliyyatın hərəkəti məhz əvvəlcədən planlaşdırılmamış belə halların nəzərə alınması yolu ilə tənzimlənir.

Mən Rotterdama 57 dəqiqə sonra çatacağımı biletimə baxaraq müəyyən edirəm. Düzdür, artıq biz tərəflərdə də qatarların gecikməsi nadir hadisədir. Tiflis-Batum, Bakı-Sumqayıt, Bakı-Tiflis kimi marşrutlarla hərəkət edən qatarlar səliqə-sahmanı, təmizliyi ilə, ən başlıcası da vaxt rejiminə əməl edilməsi ilə Avropa ölkələrindən heç də geridə qalmır. Bütün istiqamətlərdə bu cür qatarların hərəkət etməsi ən böyük arzumuzdur. Sovet dönəmindən qalma qatarlardan imtina etmənin vaxtı çoxdan çatıb.

Söz sovetlərdən düşmüşkən, mövzumuzla cüzi də olsa əlaqəsi olduğunu düşünərək, gözümlə gördüklərimi, özümün də iştirakçısı olduğum bir-iki sovet gerçəkliyini təsvir etmədən keçmək istəmirəm.

1983-cü ildə tələbə inşaat dəstəsinə gedərkən Leninqrad-Arxangelsk sərnişin qatarında başımıza gələn sərgüzəştləri acı-acı xatırlayıram. 27 saatlıq yolu 44 saata getməmiz, qatarın restoranında verilən yeməklərin it yeməyindən də pis gündə olması, yağan yağışın vaqonun çürümüş damından başımıza axması kinolent kimi bir-bir gözümün önündən keçir. Acı-acı gülümsəyirəm və "yazıq homosovetukus, sən nə qara günlərdən keçibsən" deməyi də unutmuram. Mövzuya girişmişkən, həm də bunu ürəyimi boşaltmaq üçün əla fürsət sanaraq, bir qədər bu mövzu üzərində gəzişməyi düşündüm. Amersfoort-Rotterdam qatarında yol getdiyimi, elə bunları da həmin qatarda xatırladığımı da unutmamışam. Səbriniz olsun, yenə ora qayıdacam. Bir az xatirələr məni keçmişə götürdü. Tələbələrdən ibarət belə yay inşaat dəstələri həmin illərdə SSRİ-də işçi qüvvəsi çatışmazlığını qismən də olsa aradan qaldırırdı. Tələbələri, hələ məktəbliləri demirəm, onlar haqqında növbəti abzasda danışacam, kənd zəhmətkeşlərinə yardım adıyla müxtəlif işlərə basıb işlədirdilər. Həmin illərdə ali məktəb tələbələrinin kartof, pambıq, üzüm, meyvə yığımına aparılması adi hal almışdı.

10-11 yaşından kənd məktəblilərinin günlərlə, aylarla kolxozlara, sovxozlara məcburi işə aparılması, onların isti-soyuq havada müxtəlif ağır kənd təsərrüfatı işləri görmələri sıradan bir şey idi. Müəllimlərin nəzarətində, yük maşınlarının üstündə sahəyə gətirilən uşaqlara gündəlik norma qoyulur, normanı yerinə yetirənlər tərifənir, yetirə bilməyənlərin isə üzü danlanmaqdan dan əppəyinə dönürdü. Bütün bu ağır işlərin müqabilində şagirdlərə cüzi qəpik-quruş verilirdi. Uşaqlara yazılan əməkhaqqının çox hissəsi sovet müəllimi tərəfindən mənimsənilirdi. Bu, şagirdin hələ müəllimin çörək yemədiyinə inandığı, cəmiyyətin müəllimə yarımilahi varlıq kimi pərəstiş etdiyi zamanlar idi. Sovetlərdə uşaq əməyinin istismarı bu cür baş verirdi. Payızın ayazında, qışın şaxtasında cadar-cadar, partladığı yerlərdən qan daman uşaq əllərini gözünüzün qarşısında canlandırın. Bu, hər hansı bir bədii filmdə təsvir olunan həyat deyil, sovet məktəblilərinin yaşadığı acı gerçəklər idi. Getsin o günlər, bir də gəlməsin. Qısa kəssəm, sovet məktəblisi dərs ilinin bir neçə ayını sahələrdə keçirməli olurdu. İşə çıxmayan uşaqlara qarşı müxtəlif cəza tədbirləri də nəzərdə tutulurdu. Məsələn, məktəbin ümumi iclasında seçib kənara yığdıqları həmin uşaqlara bütün kollektiv xorla "ar olsun" deyib təhqir edə bilərdi, sinif rəhbərləri, fənn müəllimləri ümumi qaydalara tabe olmayan bu cür uşaqlara aşağı qiymət verə bilərdilər, hətta, qulaqburması vermək, çubuqlamaq, dizi üstə saxlamaq, dizin altına kərpic qırıntısı tökmək, saçını yolmaq, şillə-təpik vurmaq və s. və i. a. kimi orta əsrlərdən qalma üsullarla cəzalandırmaq da nadir hadisə deyildi. Az qala hər bir müəllim özünü kiçik bir diktator kimi aparır, özünü mini bir Stalin hesab edirdi. Sovet dövründə hər situasiyaya görə o qədər cəza növləri icad edilmişdir ki, sovet adamı cəzadan korluq çəkmirdi. Uşaqların uşaqlığını əlindən alan cəzalar da nə qədər istəsən var idi. Uşaq böyüdükcə – oktyabryat, pioner, komsomol pillələrini keçdikcə ona verilən cəzalar da böyüyürdü. Böyüklərinsə böyük cəzaları var idi.

Üzrlü sayın, yuxarıda verdiyim iki abzasın uzun olduğunu özüm də anlayıram. Nə etməli, hərdən könül də boşalmağa fürsət gəzir. Mən də əlimə düşən bu fürsətdən yararlanıb xatirələrə baş vurdum.

Bir şey də deyim. Niderlandda hər şeyin baha olduğunu artıq bilirik. Qatarlarda gediş haqqı da belədir. Amersfoort-Rotterdam marşrutu ilə hərəkət edən qatarlarda gediş haqqı 15 avrodur. Amma bizim bunlara qarışmaq haqqımız da yoxdur. Nədən ki, nəyi bilməsək də, gəmiyə minib gəmiçi ilə dava edilmədiyini bilməmiş deyilik.

Qatarda ən sevdiyim yerdə – pəncərənin qarşısında otururam. İçəridə sərnişinlərin çoxluğu diqqətimdən yayınmır. Vaqonun döşəməsində iki dənə beş sentlik sikkə par-par yanır. Kimsənin o sikkələrə əhəmiyyət verəcəyi də yox. Vaqondakı qələbəliyə rəğmən, içəridəki səssizlikdən az qala tüklərim ürpəşir. Qatarın tərpənməsi ilə hamı bir saatlıq yolçuluq müddətini özünəməxsus şəkildə keçirmək barədə planının icrasına başlayır. Kimi telefonunu qurcalamaqla, kimi mesajlaşmaqla, kimi qulaqcıqla sevdiyi musiqiyə qulaq asmaqla vaxtını öldürür. Kimi də əlindəki kitabın vərəqlərini çevirməklə vaxtın dolmasını gözləyir. Qəzet-jurnal oxuyanların varlığını görməsəm də, vərəqlərin çevrilməsindən yaranan xışıltının qulağıma çatması ilə hiss edirəm. Ümumi səssizliyi pozmamağa, digərlərinə narahatlıq yaratmamağa çalışdığı hər halından bəlli olan bəzi sərnişinlər yol yoldaşları ilə ətrafdakıların eşidə bilməyəcəyi, pıçıltıya bənzər bir səslə söhbət edirlər. Oturacaqlardan ikisinə tək yiyələnmiş bir xanım isə ədəb-ərkanla, heç kimi və heç nəyi eyninə almadan makiyajını yeniləməkdədir. Kimsənin ona baxmadığından əminliyi ona tam sərbəstlik qazandırmışdır. Oturacağın birində özü, digərində isə kosmetika məlzəmələri lövbər salmışdır. Rotterdamda önəmli bir görüşə tələsdiyini və ya bir saatlıq vaxtını bu yöntəmlə yola verdiyini düşünmək olar.

Qatarın içərisini öyrənməyim, şəraitə alışmağım bir neçə dəqiqə çəkir. Və mənim diqqətim pəncərədən axıb gedən mənzərələrə kilidlənir. Qatarın arxada buraxdığı mənzərələr havanın bozluğuna, arabir artıb-azalan yağmura rəğmən öz əlvanlığı ilə məni özünə bağlayır. Ötüb keçən bu mənzərələrin məndə oyatdığı ani duyğuları saf-çürük etməyə macal belə tapmıram. Şimşək parıltısı kimi bir anda görünüb, bir anda da yoxa çıxan kanalları, nohurları seyr etməkdən doymuram. Sularda öz adi həyatını yaşayan quşların görünməsinin yaratdığı ovqatı təsvir etməkdə acizlik çəkdiyimi də boynuma alıram ki, söhbətimin səmimiliyinə kölgə düşməsin. Yanvar ayının soyuq havasına baxmayaraq, hər yerin yamyaşıl olması diqqətimdən yayınmır. Qış axşamının tezliklə öz qaranlığı ilə hər yeri örtəcəyi bəlli olsa da, başını yerdən qaldırmadan qarnını doldurmaqla məşğul olan ev heyvanları heç nəyə məhəl qoymadan otlarını qırpmaqda idilər. Onlara göz olan, nəzarət edən bir bəni-insan da gözə dəymir. Yolboyu bir-birini əvəz edən təbiət mənzərələri, insan əlinin yaratdığı kəndlər, şəhərlər görünür. Niderland şəhərsalmasının örnəyi olan bu yaşayış məntəqələrində nəzəri cəlb edən qırmızı kərpiclərin, kirəmitlərin bolluğu həmin an gözə çarpır. İrili-xırdalı evlər bir-birinin əlindən tutub, gözəgörünməz tellərlə bir-birinə bağlanaraq tamaşaçılarına milli-etnoqrafik elementlərlə zəngin geyimlərdə və açıq havada teatrlaşdırılmış folklor səhnəsi nümayiş etdirməyə hazırlaşan ansamblın üzvləri kimi sıralanmışdır.

Pəncərə şüşəsi arxasından şərqarışanın alatoranlığında qarşına çıxan yeldəyirmanlarının sirli görünüşünə heyran kəsilərək, nağıllar aləminə düşdüyünü zənn etməmək mümkün deyil. Ara-sıra gözə dəyən istixanaların ağ zolaqları uzaqda torpaqla qovuşmaq istəyini heç cür gizlədə bilməyən buludların fonunda daha aydın nəzərə çarpır. Bu istixanalarda ilboyu təzə tərəvəz becərildiyini, gülçiçək əkildiyini də yaddan çıxarmayaq.

Bir-birinə paralel stadionlarda müxtəlif yaş qrupundan olduğunu boy-buxunlarından anlaşılan onlarla uşaq və yeniyetmə eyni vaxtda məşq edir. Görünür hansısa komandanın idman meydançasıdır, məşq edənlərsə həmin komandanın müxtəlif yaşdan olan oyunçuları. Projektorlarla işıqlandırılan meydançalarda havanın yağmurlu və soyuq olmasına baxmayaraq, qızğın məşq gedir. Havada uçuşan toplardan yaranan mənzərə adama kürələri atıb-tutan sirk ustalarının oyununu xatırladır.

Qatarın Rotterdamın mərkəzi vağzalına çatdığını bildirən elanın verilməsi ilə vaqonda bir canlanma yaranır. Mən də bu bildirişdən sonra gözümü pəncərədən ayırmalı oluram. Bir saat ərzində qatardan seyr etdiyim mənzərələr mənə çəkilişində iştirak etdiyim sənədli film təsiri bağışlayır. Mən də digər sərnişinlərə qarışaraq qatardan enirəm və insanların qaynaşdığı vağzal binasına daxil oluram. Çıxışda biletimi turniketə toxunduraraq vağzal binasından çıxıram.

Vağzal meydançasından görünən qeyri-adi, postmodernist, futuristik mənzərəyə hayıl-mayıl oluram. Qatardan gördüyüm mənzərələrin təsirindən qurtarmamış tamam fərqli bir dünyaya düşdüyümü anlayıram. Qarşımda yüksələn bu modern binaların gözqamaşdırıcı parlaqlığı, başgicəlləndirici ucalığı mənim heyrətlənməmə, hələ bir az da həyacanlanmama nədən olur. Tramvay xətlərinin bir-birinə qarışdığı, maşınların və velosipedlərin qaynaşdığı məkana düşməyimin bu cür duyğularla müşaiyət olduğunu söyləmədən keçməyim.

*(davamı gələn sayda)*

Afiq MUXTAROĞLU
Niderland

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2023-Cİ İL
№ 001 (172)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# VAXTANQ KİKABİDZE VƏFAT ETDİ



Gürcüstanın Xalq artisti, tanınmış aktyor və müğənni Vaxtanq Kikabidze yanvarın 15-i 85 yaşında vəfat edib.

Vaxtanq Kikabidze 1938-ci ilin 19 iyulunda Tbilisi şəhərində anadan olub. 1961-ci ildə Tbilisi Xarici Dillər İnstitutuna daxil olub və paralel olaraq aktyorluq və müğənnilik karyerasını davam etdirib.

1959-cu ildə Tbilisi filarmoniyasına işə düzəlir, solist kimi qastrollara gedir. Dostları ilə birlikdə əvvəlcə “Velo”, sonra isə “Orero” qrupunu yaradaraq gürcü, rus, italyan və ingilis dillərində mahnılarla konsertlər verir. Onun kinodakı ilk debütü 1966-cı ildə “Dağlarda görüş” filmindən başlayır.

Aktyor bir sıra kinolarda çəkilsə də, ona əsl şöhrəti 1977-ci ildə Georgi Daneliyanın “Mimino” filmindəki baş rolu gətirib. Bu filmə görə o, SSRİ Dövlət Mükafatına layiq görülüb.

Vaxtanq Kikabidze həmçinin populyar estrada müğənnisi kimi də şöhrət tapıb.

Gürcüstan SSR xalq artisti (1980), Ukraynanın əməkdar artisti (2013), SSRİ Dövlət mükaf-



atı (1978) və Gürcüstan Dövlət mükafatı laureatı (2013) olan sənətçi 2020-ci ildən 7-ci çağırış Gürcüstan parlamentinin fəal deputatı olub.

# AVROPA ÇEMPİONATINA HAZIRLIQ ÜÇÜN HÖKUMƏT 32 MİLYON DOLLARDAN ÇOX VƏSAİT AYIRIB




Gürcüstan bu il 21 yaşadək futbolçular arasında Avropa çempionatının final mərhələsinə ev sahibliyi edəcək. Hökumət bu məqsədlə 32 milyon ABŞ dollarından çox vəsait ayırıb.

Gürcüstan hökumətinin mətbuat xidmətindən bildirilib ki, turnirin yüksək səviyyədə keçirilməsi üçün Tbilisi, Saqueramo, Kutaisi, Tsxaltubo, Kobuleti və Batumidə stadionlar, məşq meydançaları da daxil olmaqla, 12 idman obyektində bu il təmir-tikinti işləri aparılacaq.

Qeyd edək ki, Avropa çempionatı bu il iyunun 21-dən iyulun 8-dək Gürcüstan və Rumıniyada təşkil olunacaq. 16 komandanın iştirak edəcəyi turnirdə ümumilikdə 8 stadiondan istifadə olunacaq.

Çempionatın açılış oyunu Rumıniyada keçiriləcək.

Turnir çərçivəsində Gürcüstanda 16 qarşılaşma olacaq. Qrup və 1/4 final oyunları Tbilisi, Kutaisi və Batumidə keçiriləcək. Final matçına Batumi ev sahibliyi edəcək.

# 83 YAŞLI NƏZƏRLİ SAKİNİ İTKİN DÜŞÜB



Qardabani bələdiyyəsinin Nəzərli kənd sakini, 83 yaşlı Aslanpaşa Mövlayev itkin düşüb. Bu barədə onun ailə üzvləri məlumat yayıblar.

Aslanpaşa Mövlayev yanvarın 5-də səhər saatlarında evdən çıxıb və bir daha geri qayıtmayıb. Onun səhhətindəki problemlər səbəbi ilə insanları tanımaqda çətinlik çəkdiyi bildirilir.

Hazırda Aslanpaşanın yaxınları və Gürcüstanın hüquq-mühafizə orqanlarının əməkdaşları onun axtarışlarını davam etdirirlər.

# GÜRCÜSTAN HƏRBİ GÜCÜNƏ GÖRƏ DÜNYADA 85-Cİ YERDƏDİR




Gürcüstan hərbi gücünə görə dünya miqyasında 85-ci sıradadır. Bu barədə hərbi sahədə ixtisaslaşmış “Global Firepower” portalı məlumat yayıb.

2023-cü ildəki beynəlxalq reytinqə görə Gürcüstan 145 ölkə arasında 85-ci yerdə qərarlaşıb. Azərbaycan reytinqdə 57-ci, Türkiyə 11-ci, Ermənistan 94-cü yerdədir.

Siyahıda ilk üçlükdə ABŞ, Rusiya və Çin silahlı qüvvələri yer alıb.

Reytinqin tərtib olunması zamanı orduların silah sənayesindəki texnoloji inkişafı, maliyyə vəziyyəti, maddi-texniki imkanları və çevikliyi kimi cəhətlər qiymətləndirilir.

# IMF: GÜRCÜSTANIN İQTİSADİ ARTIMI 4 FAİZƏ ÇATACAQ




Beynəlxalq Valyuta Fondu (IMF) 2023-cü ildə Gürcüstan iqtisadiyyatında 4 % artım proqnozlaşdırır. Bu barədə IMF-nin hesabatında bildirilir.

Bundan başqa, sənəddə deyilir ki, bu il Gürcüstanda inflyasiya 6 % təşkil edəcək.

Xatırladaq ki, daha əvvəl Dünya Bankı Gürcüstan iqtisadiyyatının 2023-cü il üçün ÜDM artımı proqnozunu 5,5 %-dən 4 %-ə endirib. Gürcüstan Milli Bankı da oxşar proqnoz verib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.